# Azərbaycanın siyasi-diplomatik uğurları artmaqdadır

***Dünya miqyasında Azərbaycan nadir ölkələrdəndir ki, tam müstəqil şəkildə öz daxili, xarici siyasətini aparır, öz dostlarını özü seçir, heç kimin qabağında baş əymir, heç kimə hesabat vermir. Ancaq Azərbaycan xalqının iradəsi Prezident kimi mənim üçün əsas məsələdir. Son illərin tarixi göstərdi ki, bütün cəhdlərə baxmayaraq, heç kim Azərbaycanı öz müstəqil yolundan döndərə bilmədi.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**



***Məlum olduğu kimi, beynəlxalq diplomatiya "müstəqil dövlətlər arasında rəsmi əlaqələrin həyata keçirilməsində ədəb və ağlın tətbiqi" kimi təqdim edilir. Onun əsas predmeti dünyanın siyasi xəritəsində diqqəti cəlb edən dövlətlərdir. Fərəhli haldır ki, bu gün Azərbaycan belə bir dövlət kimi tanınır.***

Prezident İlham Əliyevin Azərbaycanı Cənubi Qafqaz regionunda əsas söz sahibi olan, strateji önəmli dövlətə çevirməsi dünyada etiraf olunur. Son 18 ildə yürüdülən uğurlu siyasi diplomatiyanın sayəsində 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm qələbə dövlətimizin beynəlxalq mövqelərini daha da gücləndirmişdir.

Hazırda dünya miqyasında mürəkkəb, ziddiyyətli geosiyasi proseslər gedir, həmçinin COVID-19 pandemiyası tüğyan edir. Belə bir vaxtda Azərbaycanda həm dönməz ictimai-siyasi sabitlik hökm sürür, həm də ölkəmizin beynəlxalq əlaqələri daha sabit xarakter alır. Prezident İlham Əliyevin milli maraqlara söykənən xarici siyasət kursu ölkəmizi daim irəli aparır, öncül dövlətlər sırasında möhkəmləndirir. Azərbaycanın dünyada etibarlı və strateji tərəfdaşa çevrilməsi dövlət başçımızın yürütdüyü xarici siyasətin nəticəsidir. Bu gün Azərbaycanın səsi beynəlxalq təşkilatlarda daha gur eşidilir, onunla hesablaşırlar və təklifləri, təşəbbüsləri qəbul edilir. Təkcə ölkəmizin 120 daimi üzvü olan Qoşulmama Hərəkatına bacarıqla sədrlik etməsini göstərmək kifayətdir ki, diplomatik uğurlarımızın aydın mənzərəsi göz önündə canlansın.

Prezident İlham Əliyev vaxtaşırı olaraq ən mötəbər tədbirlərə dəvətlər alır, aparıcı dövlətlərin, beynəlxalq təşkilatların rəhbərləri, nüfuzlu ictimai-siyasi xadimlərlə görüşür, bu və digər məsələlərə bağlı fikirlərini çəkinmədən, cəsarətlə söyləyir. Ölkəmizin belə yüksək nüfuza malik olmasının başlıca səbəbi məhz dövlət başçısının ulu öndər Heydər Əliyev məktəbini keçməsi, unudulmaz dahi şəxsiyyətdən miras qalmış strategiyaya sadiqliyi, özünün dürüst idarəetmə metodları, kreativ düşüncə tərzi və daim güclü dəstəyinə arxalandığı xalqının mənafeyi prizmasından çıxış etməsi ilə bağlıdır. Əlbəttə, bütün bunlar Azərbaycana göstərilən beynəlxalq etimadı daha da artırır.

Azərbaycan Vətən müharibəsindəki şanlı zəfəri ilə BMT Təhlükəsizlik Şurasının illərdən bəri yerinə yetirilməyən qətnamələrini öz gücünə icra elədi, regionda yeni reallıqlar yaratdı və dünyanı həmin reallıqlarla hesablaşmağa səslədi. Ötən illər ərzində bu qələbəyə elə əsaslı siyasi-diplomatik zəmin yaradılmışdı ki, hamı kimin təcavüzkar, kimin də təcavüzə məruz qalan olduğunu təsdiqləməli oldu, azadlıq mücadiləsinin Azərbaycanın haqq işi olduğunu etiraf etdi. Biz Ermənistanın işğalçı siyasətinin beynəlxalq səviyyədə ifşasına nail olduq, dünya erməniliyinin başlada biləcəyi xarici təhdid və təzyiqlərin qarşısına sədd çəkərək, onları yetərincə neytrallaşdırdıq. Bədxahlarımız da Qarabağda qələbənin ana südü kimi halal haqqımız olduğunu görüb susdular.

Prezident İlham Əliyevin bu gün yürütdüyü alternativsiz siyasətin bir mühüm cəhəti də odur ki, xarici diplomatların, jurnalistlərin, QHT nümayəndələrinin, dost ölkələrdən gəlmiş qonaqların Bakıdan Qarabağa müntəzəm səfərləri təşkil edilir. Ziyarətçilərin orada aparılan genişmiqyaslı bərpa-quruculuq tədbirlərini və erməni təcavüzkarlarından "yadigar" qalan vəhşiliyi, vandalizm izlərini öz gözləri ilə görürlər və bizim sülhpərvər niyyətlərimizi necə əzmlə reallaşdırdığımıza, necə bir faşizmlə qarşı-qarşıya olduğumuza canlı şahidlik edirlər.

Regionda yaranan yeni iqtisadi reallıqlarda Azərbaycan əsas rol oynayır. Elə bu səbəbdən də İlham Əliyev cəsarətli təkliflər irəli sürür və yeni əməkdaşlıq formatının yaradılmasının vacibliyini bildirir. Məlum olduğu kimi, Qarabağ müharibəsindən sonra burada yaranan ilk reallıq özündə yeni kommunikasiyaların yaradılmasını və nəqliyyat dəhlizlərinin açılmasını ehtiva edir. Qonşu ölkələrinin birgə əməkdaşlığı sayəsində gerçəkləşəcək müştərək layihələr, sözsüz ki, bölgənin sürətli inkişafı üçün real zəmin yaradar. Bunu lazımınca dəyərləndirən İlham Əliyev də məhz regionda yeni "3+3" əməkdaşlıq formatının yaradılmasını təklif edib. Bu, Azərbaycan, Türkiyə, Rusiya, İran, Gürcüstan və Ermənistan əməkdaşlığını nəzərdə tutan platformadır. Yəni inkişafa, ilk növbədə, onun aid olduğu regionun dövlətləri səy göstərməlidirlər. Çünki məhz zamanın çağırışları bölgənin gələcək təhlükəsizliyini gücləndirə bilər. Bu kontekstdə Zəngəzur dəhlizinin açılması təkcə region ölkələrinin maraqlarına hərtərəfli cavab vermir, həm də möhtərəm Prezidentimizin söylədiyi kimi, Avrasiyanın yeni bir nəqliyyat damarı açıla bilər. Necə ki, Bosfor boğazı körpüləri ilə İstanbuldan keçənlər dünyaya açılır.

Siyasi-diplomatik uğurlarda iqtisadi güc amilinin olması əsas şərtdir. Ölkəmizin zəngin karbohidrogen ehtiyatları və bundan maksimum səmərəli istifadə edə bilməyimiz sayəsində biz dünyada böyük nüfuz qazanmışıq. Hazırda Azərbaycan Avropanın enerji təhlükəsizliyinin etibarlı təminatçısı rolunda çıxış edir. Ölkəmizin nefti, qazı, digər təbii sərvətləri Avropa və dünya bazarlarına çatdırılır. Beynəlxalq banklar heç bir risk amili görmədən iqtisadiyyatımızın inkişafına sanballı investisiyalar qoyur, özləri də Azərbaycanla işbirliyindən lazımınca faydalanırlar.

Ölkəmizin beynəlxalq təşkilatlarla sıx əlaqələr qurması diplomatiyamızın başlıca uğurlarındandır. Azərbaycan Prezidenti çıxışlarında BMT-nin, Avropa İttifaqının, Qoşulmama Hərəkatının və digər beynəlxalq təşkilatların regionlarda dinc inkişafa güclü dəstək verə biləcəklərini, səmərəli beynəlxalq layihələr təqdim edərək icrasını reallaşdırmaq imkanında olduqlarını nəzərə çatdırıb.

1991-ci ildə yaranmış Azərbaycan – Avropa İttifaqı münasibətləri hazırda ən yüksək səviyyədə olması ilə seçilir. Çünki ulu öndərin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev beynəlxalq əməkdaşlığın yeni müstəviyə qədəm qoyması istiqamətində bütün imkanlardan istifadə edir.

Bir neçə ay öncə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin ölkəmizə işgüzar səfəri uğurlu perspektivi hədəfləyən səmərəli əməkdaşlığın təzahürü idi. Bildiyimiz kimi, respublikamız uzun illərdir ki, Avropa İttifaqı ilə birlikdə Cənub Qaz Dəhlizi Məşvərət Şurasına sədrlik edir. Bu layihəyə yatırılmış ümumi investisiyaların həcmi 33 milyard ABŞ dollarından çoxdur. Ticarətimizin, demək olar ki, 40 faizi Avropa İttifaqı ilə aparılır və bu quruma üzv dövlətlərin üçdə-biri Azərbaycanı strateji tərəfdaş hesab edir. Ötən ilin sonuncu günündə Cənub Qaz Dəhlizinin axırıncı – dördüncü seqmenti olan Trans-Adriatik kəmərinin istismara verilməsini böyük tarixi əhəmiyyət kəsb edən hadisədir.

Şarl Mişel Azərbaycanla tərəfdaşlığın təkcə maliyyə dəstəyinə əsaslanan işbirliyindən ibarət olmadığını bildirib: "Bu, birgə iş aparmaq istəyinə, innovasiyalara, texnoloji mübadilələrə və iqtisadi əməkdaşlığa əsaslanan tərəfdaşlıqdır. Məhz bu ruhda iqtisadi inkişaf baxımından Avropa İttifaqının hesab etdiyi iki prioritet – iqlim dəyişməsi və rəqəmsal inqilab birgə başladığımız layihələrin əsasında olmalıdır".

Bu yanaşma Azərbaycanın dünya üçün, o cümlədən Avropa üçün necə böyük önəm kəsb etdiyini, cənab İlham Əliyevin beynəlxalq aləmdə necə yüksək etimad qazana bildiyini göstərir. Azərbaycan Prezidentinin hər zaman vaxtında atdığı uğurlu diplomatik addımlar gözəl nəticələrə gətirib çıxarır və real siyasətdə əməli fayda verir. Dövlət başçımızın müxtəlif diskussiyalarda inamla söylədikləri isə dünyanın ən mühüm problemlərinin həllinə özəl yanaşma kimi yadda qalır, onun mövqeyini daha yaxşı anlamağa kömək edir.

Prezident İlham Əliyev həm Azərbaycana rəhbərlikdə, həm də beynəlxalq aləmdə beləcə fəal, nümunəvi siyasət aparır, dövlətlərarası münasibətlərin, beynəlxalq təşkilatın daha aktiv fəaliyyətinin təşəbbüskarı kimi çıxış edir. Qoşulmama Hərəkatının sədri kimi narahat dünyanın ağrılı problemlərinin həllində, İslam Əməkdaşlıq Təşkilatı vasitəsilə müsəlman ölkələrinin inteqrasiyasında, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının çalışmalarında, MDB çərçivəsində ünsiyyətin artmasında Azərbaycan Prezidentinin əməli fəallığı çox zaman həlledici rol oynayır. Dövlətimizin başçısının uzaqgörən siyasəti sayəsində Azərbaycan beynəlxalq konfransların, simpoziumların, yarışların, qlobal fəaliyyətlərin mərkəzinə çevrilib. Ölkəmizin tolerantlığı, multikulturalizmi, buradakı aktiv dialoq mühiti, sülhpərvərlik və birgəyaşayışın nümunəvi formaları ölkəmizin üstün keyfiyyətləri kimi səciyyələndirilir.

Diplomatiya incə və dəyişkən xarakterli bir sahədir, o, daim inkişaf edir, yeni, gözlənilməz metodları, formaları yaranır. Bizim üçün son dərəcə sevindirici haldır ki, Azərbaycan rəhbəri İlham Əliyev öz fəaliyyətində, uğur qazandığı diplomatiya sahəsində zamanın "nəbz"ini düzgün tutmaqla ölkəmizi və xalqımızı yeni və daha böyük nailiyyətlərə çatdırır. Bütün bunların kökündə onun həyata keçirdiyi müstəqil siyasətin dayandığı şəksizdir. Elə bu məzmun və mahiyyət də dövlətimizin beynəlxalq nüfuzunu davamlı olaraq artırır.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***